# KİMYANIN TƏDRİSİNDƏ EKSPERİMENTLƏRİN MAHİYYƏTİ VƏ HƏYATA KEÇİRİLMƏSİ İMKANLARI

**G.N.İsmayılova, S.N.Bəylərli**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məqalədə kimyanın tədrisində şagirdlərin bacarıq və vərdişlərinin sistemləşdirilməsi yolları şərh olunur. Kimya dərslərində şagirdlərin biliklərinin aktivləşdirilməsi vasitələrindən biri olan eksperimentin növləri, onların əhəmiyyəti, məzmunu və mahiyyəti barədə məlumat verilir. Sonda IX sinif kimya kursunda xlora aid dərsdə aparılan eksperiment vasitəsilə şagirdlərin idrak fəaliyyətlərinin formalaşdırılması imkanları araşdırılır.

2009-cu ildə qəbul edilən Azərbaycan Respublikasının təhsil qanununda göstərildiyi kimi təhsilin inkişafının müasir mərhələsində ümumtəhsil məktəblərinin qarşısında duran başlıca vəzifələrdən biri dərin və hərtərəfli biliyə, bacarıq və vərdişə, praktiki hazırlığa malik şəxsiyyət formalaşdırmaq lazımdır. Müasir dövr üçün mühüm və vacib olan vəzifələrin həyata keçirilməsindən ötrü ümumi və politexnik təhsilin inkişaf etdirilməsi, şagirdlərin kimya elminin əsaslarına dərindən və şüurlu şəkildə yiyələnməsi, dünya görüşünün formalaşması, həyata, istehsalata baxışlarının formalaşması, onların praktik həyat üçün hazırlanması lazımdır.

Yuxarıda göstərilən vacib vəzifələr təlimin məzmunu və metodlarının daha da təkmilləşdirilməsi, onun keyfiyyətinin və effektivliyinin yüksəldilməsi, şagirdlərin yiyələndikləri bilik və bacarığı həyata müvəffəqiyyətlə tətbiq etmələri ilə əlaqədar yeni yolların işlənib hazırlanmasını tələb edir.

Kimya dərslərində əsaslı islahat aparmaq üçün aşağıdakı problemlər həll olunmalıdır.

- Kimya tədrisinin prinsipləri, üsulları və müasir didaktik priyomlardan, xüsusilə kimyadan eksperimentlərdən istifadə;
- Eksperimentlərdən istifadə etməklə kimya tədrisinin tərbiyə imkanları və onların həyata keçirilməsi;
- Kimya dərslərinin maraqlı və yüksək səviyyədə keçirilməsi üçün eksperimentlərin təşkili və həyata keçirilməsi;
- Kimyanın eksperimentlər vasitəsilə ilə praktik istiqamətinin gücləndirilməsi;
- Eksperimentlərdən istifadə etməklə kimya dərslərində şagirdlərin fəallaşdırılması və idrak fəaliyyətinin inkişaf etdirilməsi;

- Kimyanın tədrisinin istehsalatla əlaqələndirilməsi.

Şagirdlərin kimyəvi biliyini dərinləşdirmək və genişləndirməklə onların praktiki fəaliyyətə hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir. Kimyadan eksperimentlərin təşkili, istiqaməti, məzmunu, xarakteri, həm də keçirilməsi üsulları şagirdlərdə bacarıq və vərdişlərin yaranmasına səbəb olur.

Kimyadan eksperimentlər şagirdlərin kimyadan əldə etdikləri biliklərin çatışmayan cəhətlərini aradan qaldırmaq istiqamətinə deyil, əldə etdikləri bilikləri tətbiq etmək bacarığını formalaşdırmağa xidmət edir.

Kimya fənninin tədrisində istifadəsi mümkün olan praktik metodlara aşağıdakılara aiddir;

1. Nümayiş təcrübələri
2. Laboratoriya işləri
3. Praktik işlər

Nümayiş təcrübələri müəllim tərəfindən aparılsa da, fəal/interaktiv təlimin mexanizmlərinə uyğun olaraq şagirdlərin müstəqil bilik əldə etmələri baxımından onların bu işdə yaxından iştirak etmələri məqsədəuyğun hesab edilir.

Şagird eksperimentinə aid olan laborator işləri və praktik məşğələlərin bir sıra ümumi cəhətləri olsa da ( hər iki halda kimyəvi təcrübələrin şagirdlərin özləri tərəfindən aparılması, hər iki halda onların praktik bacarıq və vərdişlərə yiyələnmələri və yerinə yetirilən işlə əlaqədar hesabat yazmaları ), onlar xarakterinə və icra müddətinə görə bir-birindən fərqlənirlər.

Laboratoriya işləri zamanı yerinə yetirilən təcrübələrdən çıxan nəticələrə əsasən şagirdlər yeni bilik əldə edirlər və onların praktik bacarıq və vərdişləri inkişaf edir. Praktiki məşğələlərdə laboratoriyada aparılan təcrübələrdən şagirdlərin bilik və bacarıqlarını möhkəmləndirmək üçün istifadə edilir. Laboratoriya məşğələləri qısa müddət ərzində (10-20 dəqiqə) ərzində, praktik məşğələlər isə bütün dərs (45 dəqiqə), bəzən isə (yuxarı siniflərdə) iki dərs (90 dəqiqə müddətində) həyata keçirilir.

Tədqiqat eksperimenti dərsdə və dərsdən kənar vaxtlarda aparılır. Əsas məqsədi təlimin daxili motivasiyasını yüksəltmək və idrakı marağı inkişaf etdirməkdir. Kimya praktikumu vahid sistemli məşğələdə qruplaşdırılan praktik işlərin bütöv kompleksindən ibarətdir. Praktik iş və ya praktik məşğələ də tədris vahidinə (bölməyə) aid laboratoriyada təcrübələrdən bilik və bacarığı möhkəmləndirmək üçün istifadə olunur. Praktik məşğələ öncədən tədris edilmiş təlim materialları üzrə keçirilən, əvvəlcədən verilmiş təlimata və ya dərslikdəki göstəricilərə əsasən şagirdlər tərəfindən müstəqil sürətdə yerinə yetirilən şagird eksperimentidir. Ev eksperimentinə şagirdlərin ev şəraitində apardıqları təcrübələr aid edilir. Eksperimentin bu növü biliklərin və bacarıqların möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Virtual eksperiment dedikdə isə kimya eksperimentinin kompüter texnologiyası ilə nümayişi nəzərdə tutulur. Kimyanın

tədrisində praktik işlər şagirdlərin hesablama, ölçmə, tədqiqatçılıq, nümayişçilik, diqqətlilik, müstəqillik, fəallıq kimi qabiliyyətlərini yoxlamaq üçün bir vasitədir.

Laboratoriya işlərinin və kimyadan praktik işlərin yerinə yetirilməsində qazanılmış bacarıqlar həyatda rast gəlinən problemlərin həllində köməklik göstərir.

Laboratoriya işi xarakterindən asılı olaraq, məktəb laboratoriyalarında, fənn kabinetlərində, məktəbyanı sahədə, istehsalat müəsisələrində də təşkil edilə bilər.

Ümumtəhsil məktəblərində fənn kimi tədris edilən kimya fənni, digər fənlərlə müqayisədə şagirdlərin həm praktik bacarıqlarının, həm də nəzəri biliklərinin inkişaf etdirilməsində və mövcud olanları formalaşdırmaq üçün daha geniş imkanlara malikdir.

Empirik biliklər obyekt və hadisələr haqqında duyğu orqanlarının köməyi ilə qazanılır və anlayışlarla ifadə olunur (deklorativ biliklər). Empirik təsəvvür müşahidə, müqayisə, təsviretmə, eksperiment, sistemləşdirmə kimi metodlara söykənir və bu metodların vasitəsilə qazanılan həyati bacarıqları inkişaf etdirir, təkmilləşdirir.

Hazırda kuriklum əsasında yazılan kimya dərsliklərində nəzəri və praktik materialların nisbəti gözlənilir və demək olar olar ki, əksər mövzularda nümayiş təcrübələri, laborator və praktik məşğələlər verilir. Bu baxımdan tədrisdə bacarıq və vərdişlərin eksperiment vasitəsilə inkişaf etdirilməsi üçün geniş imkanlar vardır.

Deyilənləri tam izah etmək məqsədilə IX sinifdə halogenələrə aid dərslərdə eksperiment vasitəsilə bacarıqların aktivləşdirilməsi imkanlarına baxaq. Bu halda xlor mövzusu xüsusi maraq kəsb edir.

Halogen mövzusu qeyri-mrtalların tədrisində özündə bir sıra maraqlı faktları cəmləşdirir. Bəsit maddə halında mövcud olmalarını nəzərə alaraq tərəfimizdən aşağıdakı plan təklif olunur.

- Elementin dövri sistemdə mövqeyi
- Elementin kəşfi və adının mənşəyi
- Təbiətdə tapılması
- Bəsit maddə və kimyəvi element kimi xarakteristikası
- Alınması
- Fiziki və kimyəvi xassələri
- Birləşmələri
- Tətbiqi

Maddələrin belə ardıcıllıqla öyrənilməsi imkan verir ki, maddə alınarkən onun fiziki, kimyəvi xassələri, birləşmələri barədə şagirdlər əyani olaraq özləri müşahidələr aparsınlar və müstəqil nəticə çıxarsınlar.

Şagirdlərə birinci dərsdə xlorun kəşfi, təbiətdə tapılması, kimyəvi element

kimi xarakteristikası verilir. Ikinci dərsdə isə artıq alınması, fiziki və kimyəvi xassələri və birləşmələri öyrədilir. Suallar əsasında biliklərin hansı səviyyədə qavranılması yoxlanılır. Şagirdlərin cavabları dinlənilir.

| Kimyəvi element | Bəsit maddə |
|---|---|
| 1.Kimyəvi işarəsi – Cl | Kimyəvi formulu – $Cl_2$ |
| 2.Qeyri metaldır. | Molekulun modeli - ∞ |
| 3.Ar ( Cl ) = 35,5 | Mr ( Cl ) = 72 |
| Valentliyi: I, III, V, VII | Quruluşu – molekulyar |
| Təbiətdə yayılması: Birləşmələr şəklində rast gəlinir. NaCl- qalit, KCl- silvin.Okean, dəniz və göl sularında rast gəlinir. | Fiziki xassələri: Xlor- sarımtıl-yaşıl rəngli, kəskin iyli, zəhərli qazdır. Havadan 2,5 dəfə ağırdır. 20C-də 1 *l* suda 2,5 *l* Cl həll olur- $101^oC$-də əriyir, $34^oC$-də qaynayır. |
| İzotopları: $^{33}_{17}Cl$, $^{34}_{17}Cl$, $^{35}_{17}Cl$, $^{36}_{17}Cl$, $^{37}_{17}Cl$, $^{38}_{17}Cl$, $^{39}_{17}Cl$ | |
| Nüvəsinin yükü – 17 | |

Şagirdlərdə bu mövzuya dair bacarıq və vərdişləri formalaşdırmaq məqsədilə aşağıdakı eksperimenti həyata keçirmək məqsədəuyğundur.

Sınaq şüşəsinə 2-3 qr xörək duzu tökün və bütün duz islanana qədər üzərinə qatı sulfat turşusu əlavə edin. Sınaq şüşəsinin ağzını içərisindən qazaparan boru keçirilmiş tıxacla bağlayın. Borunun ucunu başqa sınaq şüşəsinə elə salın ki, suyun səthindən təxminən 0,5-1 sm dərində olsun. Sonra birinci sınaq şüşəsindəki qarışığı 5-6 dəqiqə ehtiyatla qızdırın. İzləyin ki, sulfat turşusu içərisində su olan sınaq şüşəsinə sıçrasın.




**Şəkil 1. Laboratoriyada xlorid turşusunun alınması.**

**Tapşırıq 1.** Qatı $H_2SO_4$ və NaCl arasında adi şəraitdə və şiddətli qızdırdıqda gedən kimyəvi reaksiyaların tənliklərini yazın.

**Tapşırıq 2.** İkinci sınaq şüşəsində nazik axının aşağı düşməsinin görünməsi nə ilə əlaqədardır?

**Tapşırıq 3.** Niyə qazaparan borunun ucu suyun dibindən 0,5-1,0 sm dərində olmalıdır?

Təcrübənin nümayişindən sonra (təcrübə müəllimin rəhbərliyi və laborantın iştirakı ilə aparılmalıdır). Şagirdləri qruplara ayırıb, tapşırıqlara iş vərəqində cavab yazmaq tapşırılır. Şagirdlər təcrübə qurtaran kimi nəzəri bilikləri və apardıqları müşahidələr əsasında tapşırıqları cavablandırırlar.

1. $NaCl + H_2SO_4 = NaHSO_4 + HCl$ (adi şəraitdə)
2. $2NaCl + H_2SO_4 = Na_2SO_4 + 2HCl$
3. Ayrılan HCl qazı suyun üzərindəki su buxarında həll olub sınaq şüşəsinin divarında nazik axın əmələ gətirir.
4. Qazaparan borunun ucunu sınaq şüşəsinin dibinə yaxın salmaq lazşmdır ki, HCl qazı suda daha çox həll olsun, sudan az çıxsın.

**İstifadə edilmiş ədəbiyyat:**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı – 2009
2. A.Z. Məmmədova, A.Ə. Hənifəyeva – Kimya dərslərində şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi vasitələri və imkanları. Kimya məktəbdə N4 ( 60 ) 2017
3. M. Abbasov, A.Əliyev, M. Fərəcov, V.Əliyev – Ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kuriklum) (XII-XI siniflər üçün). Kimya məktəbdə jurnalı 2-3 (46-47) 2014 səh 4-148
4. R.Y.Əliyev, Ə.T.Əzizov – Kimyanın tədrisi metodikası. Bakı – 2006
5. Г.М.Чернобелская – Методика обуления химия b cpeднem mkom. Mockba 2000.

*Г.Н. Исмаилова, С.Н.Бауларли*

**Сущность и возможность экспериментов в преподании химии**

**РЕЗЮМЕ**

В статье анализируются варианты систематизации способностей и привычек учеников при изучении химии, изложена информация о видах эксперимента, как одно из средств активизации знаний учеников на уроках химии, значение, содержание и суть эксперимента. В конце анализируется возможности формирования восприимчивости учеников посредством эксперимента, посвященного хлору на курсах химии в 9 классах.

*G.N. Ismailova, S.N. Baylarli*

**The essence and possibilities of experiments in chemistry teaching**

**SUMMARY**

Methods of systematization of students' skills and abilities are interpreted in the article. Information is provided about types of experiment which is one of the activation means of students' skills in chemistry classes, their importance, content and essence. In the conclusion, formation possibilities of cognition opportunities through conducted experiments at classes on chlorine at IX grade chemistry courses are investigated.

**Açar sözlər:** kurikulum, kimya eksperimenti, kimyəvi formul, laboratoriya məşğələsi, izotop, valentlik.

**Ключевые слова:** учебный план, химический эксперимент, химическая формула, лабораторная работа, изотоп, валентность.

**Key words:** curriculum, chemical experiment, chemical formula, laboratory work, isotope, valence.